# Türkiyədə Xocalı soyqırımı qurbanları anılıb

## Osmaniyə

**Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncama uyğun olaraq, "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində Türkiyənin bir sıra şəhərlərində konfrans keçirilib.**

Osmaniyə Korkut Ata Universitetində "Xocalı soyqırımının otuzuncu ildönümü və Türkiyə-Azərbaycan əlaqələri" mövzusunda keçirilən konfrans, Azərbaycanın Türki-



yədəki səfirliyi və Osmaniyə Korkut Ata Universiteti tərəfindən birgə təşkil olunub.

Konfransda Osmaniyə Korkut Ata Universitetinin rektoru, professor Turqay Uzun və Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elxan Zeynalov çıxış ediblər.

Çıxışında şəhidlərimizə Allahdan rəhmət diləyərək, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadəsini xatırladan rektor Turqay Uzun, Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin dinamikasının bütün dünya üçün nümunə olduğunu bildirib.

Xocalı soyqırımını erməni faşizminin Azərbaycan və Türkiyədə törətdikləri ağır cinayətlərin ən amansızı olduğunu ifadə edən diplomat Elxan Zeynalov, Xocalı faciəsinin başvermə səbəbləri, acı nəticələri barədə ətraflı məlumat verib

Faciəyə hüquqi-siyasi qiymət ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib. Məhz Heydər Əliyevin ciddi səyi nəticəsində Xocalıda törədilən vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılmasına başlanılıb. Faciə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ədalətin zəfər çalmasına öz töhfəsini verib. Tədbir iştirakçılarını "Xocalıya ədalət!" çağırışına səs verməyə dəvət edən diplomat bildirib ki, dünya Xocalı soyqırımını tanımalıdır.

Çıxışlarda Xocalı soyqırımı XX əsrdə insanlığın üz qarası kimi dəyərləndirilib, bu bəşəri cinayəti törədənlər lənətlənib və cinayətkarların beynəlxalq məhkəmələr tərəfindən mühakiməsi tələb edilib.

Diqqətə çatdırılıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun İkinci Qarabağ savaşında qazandığı tarixi qələbə iki qardaş xalqın birliyinin təntənəsidir.

## Adana

**Adana şəhərində fəaliyyət göstərən Çukurova Universitetində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunan anım mərasimi keçirilib. Universitetin professor, müəllim heyəti, eləcə də yerli və xarici tələbələrin iştirakı ilə keçirilən mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.**

Mərasimdə Çukurova Universitetinin rektoru doktor Məryəm Tuncel, Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elxan Zeynalov və təhsil müşaviri Nəcibə



Nəsibovanın çıxışları dinlənilib.

Xocalı soyqırımının XX əsrdə insanlıq əleyhinə törədilən ən ağır cinayət olduğunu deyən rektor Məryəm Tuncel bildirib ki, böyük Qarabağ Zəfəri bizim üçün az da olsa təsəlli ola bilər, lakin bu bəşəri cinayəti unutmamalı və unutdurmamalıyıq.

Çıxışında Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinə toxunan diplomat Elxan Zeynalov, Prezident İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı Sərəncamın qarşıya qoyduğu vəzifələrdən, terror dövləti olan Ermənistanın ağır cinayətlərinin ifşası prosesindən, Vətən müharibəsində qazanılan Qələbədən sonrakı proseslərdən danışıb.

Sonra çıxış edən Nəcibə Nəsibova, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərdən, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə dövlətinin və xalqının İkinci Qarabağ müharibəsində sərgilədiyi qətiyyətli mövqedən danışıb.

Siyasi elmlər üzrə fəlsəfə doktoru Mərziyə Məmmədlinin çıxışı təcavüzkar Ermənistanın Azərbaycana qarşı qaldırdığı əsassız ərazi iddiası ilə başlanıb, iki xalq arasında ağır münaqişə və müharibələrə səbəb olan prosesi əhatə edib. Çıxışlarda ötən əsrin ən ağır cinayətlərindən sayılan Xocalı soyqırımını törədənlər qınanılıb.

## Hatay

**Hatay Mustafa Kamal Universitetinin nəzdindəki Türk Dünyası Araşdırmaları Cəmiyyəti tərəfindən təşkil olunan mərasimdə, HMKU-nun professor, müəllim və tələbə heyəti iştirak ediblər. Mərasimdə Hatay Mustafa Kamal Universitetinin rektoru, professor Hasan Kaya və Türk Dünyası Araşdırmaları Cəmiyyətinin sədri Batuhan Akpınar çıxış ediblər.**

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadəsini xatırladan rektor, professor Hasan Kaya bildirib ki, ermənilərin törətdiyi Xocalı soyqırımı XX əsrdə insanlığın üz qarasıdır.



Daha sonra Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elxan Zeynalov, ehtiyatda olan türkiyəli general Yücel Karauz və dosent Esma Özdaşlı Xocalı soyqırımının səbəb və məqsədləri barədə müfəssəl məlumat veriblər.

Diplomat Elxan Zeynalov Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərdən bəhs edib.

Erməni faşizminin bütün istiqamətlərdəki fəaliyyətləri, Azərbaycan və Türkiyəyə qarşı törədilən bəşəri cinayətlər, soyqırımı və deportasiyalar barədə müfəssəl məlumat verən general Yücel Karauz xatırladıb ki, keçmiş SSRİ dövründə Azərbaycan xalqının tarixi məqsədyönlü şəkildə unutdurulub, erməni cəlladlarının törətdikləri cinayətlərin izini itirməyə çalışıblar.

Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı məlum Fərman əsasında 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü kimi təsis etməsi xalqın qan yaddaşını oyadıb, tarixi həqiqətlərin üzə çıxarılması üçün dövlət strategiyası müəyyən edilib.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**

Respublika .- 2022.- 22 fevral.- S.5.